*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 394-401*

https://doi.org/10.62837/2025.6.394

**UOT: 821.111(73)**
**f.f.d. MƏCİDOVA İLAHƏ ADİL QIZI**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0000-0002-0858-2020**
**macidova_ilaha@adu.edu.az**

# KEYT ŞOPİNİN "OYANIŞ" ROMANINDA ƏNƏNƏ VƏ MÜASİRLİYİN TOQQUŞMASI

**Xülasə**

XIX əsrin sonlarında Keyt Şopin tərəfindən qələmə alınmış "Oyanış" romanı Viktoriya dövrünün mövcud gender münasibətlərini və qadının dəyərinin onun bioloji reproduktiv funksiyası ilə məhdudlaşdırılmasını dəstəkləyən sərt patriarxal ideologiyanı tənqid edən əsərdir. Müəllif əsərdə fərqli qadınlıq modellərini təmsil edən Adel Ratinyol və Edna Pontelye obrazları vasitəsilə Viktorian dövründə qadına dair ənənəvi təsəvvürlərini qarşılaşdırır. Adel obrazı mövcud patriarxal quruluşda qadının "fədakar ana və həyat yoldaşı" rolu ilə səciyyələnərkən, Edna Pontelye obrazı fərdi identiklik, subyektivlik və sosial konvensiyalara qarşı çıxış etmə axtarışları ilə fərqlənir. Yazıçı Edna obrazı vasitəsilə qadın subyektliyinin və azadlığının yeni diskursunu formalaşdıraraq, qadınların yalnız evlilik və analıq çərçivəsində mövcudluğuna dair dominant ideoloji narrativi dekonstruksiya edir. Nəticə etibarilə, Edna Pontelye kimi obrazlar ədəbiyyat tarixində "Yeni Qadın" (New Woman) arxetipinin təşəkkül tapmasının ədəbi-mədəni əsasını qoyur və qadınların öz varoluş imkanlarını sorğulayan alternativ mövqelərin meydana çıxmasına zəmin yaradır.

**Açar sözlər:** "yeni qadın" anlayışı, kimlik, ənənəvi və müasir qadın, sosial normalar, transformasiya

**Ключевые слова:** концепция «новой женщины», идентичность, традиционная и современная женщина, социальные нормы, трансформация

**Keywords:** concept of "new woman", identity, traditional and modern woman, social norms, transformation

XIX əsrin qadınların hüquq bərabərliyi uğrunda geniş vüsət almış ideoloji hərəkatla səciyyələnməsi "qadınlıq" anlayışının dəyişməsinə və yenidən dərk edilməsinə zəmin yaratmışdır. Bu dövrdə formalaşan "yeni qadın" tipi gec-viktorian ədəbiyyatının aparıcı mədəni fenomenlərindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, 1883-1900-cü illər arasında yüzdən artıq roman məhz "yeni qadın" mövzusuna həsr olunmuşdur. Amerika ədəbiyyatında feminizmin simvolik fiquru hesab edilən Keyt Şopin isə gündəlik qeydlərində "yeni qadın" anlayışı haqqında yazılmış müasir əsərləri "bəzi ingilis qadınlarının ədəbiyyatda dəbə çevirdiyi isterik, xəstə və qeyri-səmimi həyat təsvirlərinə ümumi aludəlik" [1] kimi qiymətləndirirdi.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 394-401*

XIX əsrdə İngiltərə və ABŞ-da qadın hərəkatının əsas mərhələləri izlənilirdi və bu kontekstdə M.Uollstonkraftın "Qadın hüquqlarının müdafiəsi", C.Myurrayın "Cinslər bərabərliyi haqqında" və M. Fullerın "XIX əsrdə qadın" əsərləri mühüm ideoloji mənbələr kimi diqqət çəkir. Eyni zamanda həmin dövrdə geniş yayılmış qadın davranış modeli "evin mələyi" (angel in the house) anlayışının mənşəyi və məzmunu təhlil olunurdu. Bu model qadını mələk obrazında, aseksual bir varlıq kimi təqdim edir və onun başlıca vəzifəsini ailəyə xidmət və ev təsərrüfatını idarə etmək kimi müəyyənləşdirirdi.

Müasir dövrdə qadınlar həyatlarının gedişatına dair qərarlar qəbul etmək və həmin qərarları həyata keçirmək hüququna malik olan müstəqil subyektlər kimi tanınırlar. Səsvermə hüququ, bərabər təhsil və peşəkar fəaliyyət imkanları, eləcə də evlilik və sevgi ilə bağlı mövcud sosial normalara uyğun olub-olmamaq seçimi bu hüquqların mühüm təzahürlərindəndir. Lakin bu gün təbii və labüd kimi görünən bu azadlıqların keçmişdə sərt ictimai qınaq və ciddi müqavimətlə qarşılandığını nəzərə almaq vacibdir.

Feminist hərəkatın XVIII əsrin sonlarında formalaşmasına və bu günədək qadın hüquqları uğrunda mübarizəsini davam etdirməsinə rəğmən, bədii ədəbiyyatda qadın obrazlarının transformasiyası XIX əsrin sonları XX əsrin əvvəllərində baş vermişdi. Sözügedən dövrdə qadınların təsviri həmin illərin sosial-mədəni dəyişiklikləri ilə paralellik təşkil edirdi.

Feminist tənqid qadın subyektivliyi, qadın təfəkkürünün və dilinin spesifikliyi kimi məsələləri araşdıraraq onların mətnlərdə təzahürünü ön plana çıxarır. Bununla belə, yeni dövr nəzəriyyələrinin XIX əsr ədəbiyyatına, xüsusən də Keyt Şopinin əsərlərinə mexaniki şəkildə tətbiqi bəzən mübahisəli görünür. XIX əsr qadın ədəbiyyatının, o cümlədən K.Şopenin yaradıcılığının təhlilinə ən doğru yanaşmalardan biri Lyusi İrqarayın feminist diskursun ikili səsliliyi və oyun xarakteri barədə mülahizələridir. Bu müddəalar M.M.Baxtinin "başqasının sözü" konsepsiyası ilə səsləşərək, qadın ədəbiyyatının çoxsəsliliyini və mürəkkəb semantik təbiətini açmağa imkan verir.

Feminist nəzəriyyədə ayrıca vurğulanan digər problem isə "sükut" fenomenidir. Bu kontekstdə Edvin Ardennerin Mişel Fukonun ideyalarına əsaslanaraq irəli sürdüyü "susqun qruplar" [2] nəzəriyyəsi xüsusi əhəmiyyət kəsb edir. Ardennerin fikrincə, qadınlar çox vaxt ya tamamilə susmağa məcbur edilir, ya da danışarkən belə "lal" qalırlar; çünki onların dünyagörüşü dominant maskulin mədəniyyətdə qəbul edilmir və sözlə ifadə oluna bilmir. Bu vəziyyət bədii mətnlərdə semantik boşluqların yaranmasına səbəb olur və nəticədə qeyri-verbal ünsiyyət vasitələri – jestlər, susqunluq, ifadə olunmamış hisslər xüsusi estetik və semantik yüklənmə qazanır.

K.Şopinin 1894-cü ildə nəşr olunan ilk novella toplusu "Delta xalqı"nda qadın mövzusunun unikal interpretasiyası xüsusilə diqqət çəkir. Bu topluda müəllifin

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2025
Səh. 394-401

sonrakı yaradıcılığında inkişaf etdirəcəyi əsas mövzular və təsvirlər müəyyənləşir. Əsərlərdə dövrün Amerika ədəbiyyatına xas ənənəvi qadın tipləri ilə yanaşı, qadın anlayışına dair köhnə təsəvvürləri pozan obrazlar da yer alır.

1899-cu ildə qələmə aldığı və nəşr edildiyi dövrdə ciddi mübahisələrə səbəb olan "Oyanış" romanı isə Viktoriya dövrü ideologiyasının təməlini təşkil edən qadının "fədakar ana və həyat yoldaşı" obrazını təmsil edən Adel Ratinyol ilə ənənəvi patriarxal təsəvvürlərə qarşı çıxan və fərdi azadlıq uğrunda mübarizə aparan Edna Pontelye obrazlarını qarşılaşdırır. Əsər ənənəvi qadın rollarının sərhədlərini sorğulayaraq, müasir qadın şüurunun və fərdi azadlığının doğuşunu təsvir edir.

Viktoriya dövründə qadınlar ikinci dərəcəli mövqedə təsəvvür edilir və onların dəyəri əsasən uşaq böyütmək və ər məmnuniyyətini təmin etmə qabiliyyəti ilə ölçülürdü. K.Şopin isə qadınların həyat və evlilik münasibətlərində obyekt statusuna endirilməsini legitimləşdirən hegemon ideologiyaya qarşı çıxırdı. Məhz romandakı Edna Pontelye obrazı da XIX əsr qadınlıq ideyasını tənqid edir və fərdi identiklik uğrunda mübarizə aparır. Ednanın "oyanış"ı onun öz varlığını, şəxsi azadlığını və istəklərini kəşf etməsi prosesidir. Bu "oyanış"ın qadın ədəbiyyatında yeni dövrün başlanğıcı olduğunu bildirən E.Şouolter həmçinin əlavə edir ki, "Ednanın səsi patriarxal cəmiyyətdə boğulmaq təhlükəsi altında olan qadının səsidir [7, s. 65].

S.Qilbert "Çardaqdakı dəli qadın: Qadın yazıçı və XIX əsrin ədəbi təxəyyülü" adlı kitabında vurğulayır ki, "90-cı illər qadınlar üçün "azad məhəbbət" anlayışının nisbətən yeni bir ideya kimi ortaya çıxması və siyasi, peşəkar, emosional müstəqilliyi seçmiş "yeni qadın" tipajının formalaşması ilə səciyyələnirdi" [5, s. 14].

Ednanın "oyanış"ı onun Leonc Pontelye ilə evlənərək daxil olduğu kreol dünyasına qədəm qoyması ilə başlayır. Kentukkidə sərt puritan əxlaqı və ənənələri ilə tərbiyə olunmuş qadın üçün bu yeni sosial mühit mədəni şok effekti yaradır. Kreolların gündəlik həyatında və xüsusilə süfrə başında sərbəst müzakirə edilən mövzular Ednaya qeyri-adi görünür. Burada evli qadınlarla cavan kişilər arasında münasibətin adi qarşılanması onda həm təəccüb, həm də daxili qarşıdurma doğurur. Lakin bütün bu zahiri azadlığın arxasında yenə də sərt patriarxal qaydalar mövcuddur və bu qaydalar qadının davranış sərhədlərini müəyyənləşdirir.

Robert LeBrun ilə arasında yaranan dərin hisslər Ednanın fərdi oyanışına və daxili azadlıq arzusuna təkan verir. Sosial konvensiyalardan qurtulmaq onun həyatına harmoniya gətirsə də, eyni zamanda təhlükəli cizgiləri də üzə çıxarır: bu sərbəstliyin altında uzun müddət basdırılmış instinktlər yatır. Məhz bu duyğular Ednanı şəhvətpərəst və cazibədar Alse Arobinlə münasibətə sürükləyir. Bu məqam onun azadlıq axtarışının təkcə mənəvi deyil, həm də cismani ölçülərə sahib olduğunu göstərir və daxili mübarizəsini daha da dərinləşdirir.

Edna ilə Robert arasındakı münasibət tədricən formalaşan, özü də fərqinə varmadan dərinləşən səmimi və həqiqi hiss olduğundan Alse Arobinin heyvani və səthi ehtiraslarından tamamilə fərqlənir. Robert ənənəvi mədəni çərçivələrdə hərəkət

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 394-401*

edir, onun ən mümkünsüz xəyallarında belə Edna ilə xoşbəxtliyi yalnız Leonc Pontelye onu azad buraxsa mümkün görünür. Məhz ənənəvi öhdəlik və məsuliyyət anlayışı Robert və Ednanın sevgiyə münasibətlərində əsas ziddiyyət nöqtəsinə çevrilir və nəticədə Robert onu tərk edir.

Ednanın qeyri-adi cazibəsi, zərifliyi və qüsursuzluğu ətrafındakı üç fərqli kişini – həyat yoldaşı Leonc Pontelyeni, şəhvətpərəst sevgilisi Alse Arobini və ona səmimi məhəbbət bəsləyən Roberti özünə cəlb edir. Bununla belə, onların heç biri Ednanı müstəqil şəxsiyyət kimi görmək iqtidarında deyil.

Romanda Ednanın kommunikativ davranışı xüsusi məna daşıyır. O, özünüifadə yolunda açıq-aşkar susqunluqdan, "başqasının sözü"nü keçərək öz səsini tapmağa doğru olan mürəkkəb inkişaf mərhələsindən keçir. M.M.Baxtinin ifadəsi ilə desək, susqunluq "danışıqların davamı" kimi çıxış edir və danışıqdan fərqli olsa da eyni dərəcədə informativ ünsiyyət formasıdır. Romanın əvvəlində, Edna daxili narahatlıq hiss etməsinə baxmayaraq, ənənə və adətə uyğun yaşadığı üçün susqunluğu təslimçilik və tale ilə barışma xarakteri daşıyır. Lakin qəhrəmanın özünüdərkinin artması ilə susqunluğu artıq etiraz və narazılıq əlamətinə çevrilir: "Bir daha mənimlə belə danışma; Mən sənə cavab verməyəcəyəm" [4, s. 42].

Onun rəssamlığa olan marağı da özünüifadənin bir vasitəsi kimi təqdim olunur, lakin tezliklə Edna bacarıqlarının məhdud olduğunu dərk edir. O, evini tərk edib nisbi azadlıq qazandıqdan sonra qəhrəman ekzistensial təzadlarla üzləşir və öz "mən"ini müəyyənləşdirməyə çalışır. Onun nitqində, özünü və həyatını dərk etməyə çalışdığı anlarda, həmişə cəmiyyətin qiymətləndirici "səsi", tənqidi rəyi səslənir. Ednanın Robertlə dialoqları onun özünü tapdığını göstərir; o, istəklərindən utanmır, əksinə onları açıq ifadə etmək cəsarətinə malikdir.

Bununla belə, seçimin azadlığı məhduddur: Edna yaşadığı mühitin qanunları və məhdudiyyətləri ilə üzləşir. O, etiraf edir ki, onun "oyanışı" ona yalnız həyatın dolğunluğunu deyil, həm də əzab gətirib: "Bəlkə də bütün ömrü boyu illüziyalara aldanmaqdansa, oyanmaq, hətta əzab çəkmək daha yaxşıdır" [4, s. 60].

Romanın ən çox polemikaya səbəb olan mövzularından biri müəllifin analıq ideyasına yanaşmasıdır. K.Şopinin təqdim etdiyi ana obrazı XIX əsr cəmiyyətində qadının rolu haqqında mövcud mədəni stereotiplərlə üst-üstə düşmür. Ednanın övladlarına münasibəti ikili xarakter daşıyır: o, bəzən həvəslə onlarla vaxt keçirir, bəzən isə onları unutmağa meylli olur. Həyat yoldaşı Leonc Ednanın "ana-qadın" modelinə uyğun olmadığını vurğulayır və onu məhz bu xüsusiyyətinə görə tənqid edir. Şopin isə duyğusuz, sadəcə instinkt ilə yaşayan ana-qadın obrazlarını ironik çalarlarla təqdim edir. Ednanın rəfiqəsi Adel Ratinyoll ilə söhbəti zamanı dediyi məşhur sözlər analığa dair münasibətini açıq şəkildə göstərir: "Mən vacib olmayan hər şeydən keçərdim; pullarımdan, hətta övladlarım üçün həyatımı da qurban verərdim, amma özümü əsla qurban etməzdim" [4, s. 96].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 394-401*

Edna obrazının mürəkkəbliyi onun Floberin Emma Bovarisi ilə müqayisə oluna biləcək şəkildə iki ziddiyyətli mövqedə dayanması ilə izah olunur: bir tərəfdə arzular, azadlıq və fərdi özünü reallaşdırma istəyi, digər tərəfdə isə təminatlı, sabit həyatın cazibəsi və cəmiyyətin dayatdığı qadınlıq modeli. Ednanın bu daxili qarşıdurması ətrafdakı iki qadın obrazı – madmazel Ris və Adel Ratinyol vasitəsilə simvolik səviyyədə ifadə olunur. Madmazel Ris istedadlı pianoçu və müstəqil həyat tərzi sürən qadındır və Ednanın yaradıcılıq potensialının və sərhədsiz azadlıq arzusunun təcəssümü kimi çıxış edir. Lakin onun seçdiyi yol tam mənada harmonik deyil; madmazel Ris cəmiyyət tərəfindən təcrid olunmuş və tənha obrazdır. Əksinə, Adel Ratinyol ənənəvi "ana-qadın" idealını təmsil edir: o, həyatını ailəsinə və analıq borcuna həsr edir, patriarxal cəmiyyətin yaratdığı qadın obrazının nümunəsidir.

Hər iki qadın Ednanın yaxın əhatəsinə daxil olsa da, nə Adel, nə də madmazel Ris onun daxili dünyasını tam olaraq anlaya bilir. Onlar bir tərəfdən Ednanın qarşısında duran iki əks həyat yolunu simvolizə edir, digər tərəfdən isə onun öz mənliyini və azadlığını tapmaq üçün keçməli olduğu ekzistensial seçimin metaforik təsvirinə çevrilir.

Edna Pontelye açıq şəkildə XIX əsrin sosial normalarına qarşı çıxsa da, müəllif Adel Ratinyol obrazında Viktorian qadınlıq idealını təcəssüm etdirən obraz təqdim edir. Adel Ratinyol ailəsinə sədaqətli və fədakar ana obrazı kimi təqdim edilsə də, onun bəzi mövqeləri və davranışları göstərir ki, bu obraz sadəcə Viktorian dövrü qadınlıq idealının mexaniki təcəssümü deyil, eyni zamanda həmin modelin daxili ziddiyyətlərini üzə çıxaran simvoldur. Xarakteri və davranışları cəmiyyətin qadın idealını tam şəkildə əks etdirən Adelin həyatı ənənəvi qadın şüurunun məhdudiyyətləri daxilində formalaşır.

Robert Kon vurğulayır ki, "Oyanış" romanı K.Şopinin Edna Pontelye obrazı vasitəsilə qadın mövcudluğuna dair yanaşmasının müasir ədəbiyyat və populyar mədəniyyətdə qadın məsələlərinin mərkəzi diskurs kimi formalaşacağını öncədən xəbər verdiyi üçün geniş auditoriyanın diqqətini cəlb etmişdir" [6, s. 137].

Əsərin çoxqatlı mənaları və dərin fəlsəfi təhlili onun simvolik quruluşu vasitəsilə üzə çıxır. Roman bir neçə məna təbəqəsindən ibarətdir. Birinci təbəqə obrazın özünü tanıma yolundakı faciəvi taleyidir. İkinci təbəqə patriarxal cəmiyyətdə qadının taleyi ilə bağlıdır; burada cəmiyyətdə qəbul olunan iki əsas davranış modeli mövcuddur: biri özündən imtina edib ailəyə xidmət etmək (Adel obrazı), digəri isə şəxsi xoşbəxtlikdən imtina etməklə yaradıcı şəkildə özünü reallaşdırmaq (madmazel Ris obrazı). Üçüncü, simvolik təbəqə isə Edna obrazının mərhələli şəkildə Afrodita/Venera mifoloji obrazına çevrilməsidir.

Obrazın paqanik sevgi ilahəsi ilə bənzərliyinin əsas başlanğıcı gecə okeanda üzmə səhnəsi ilə bağlıdır. Uzun müddət uğursuz cəhdlərdən sonra Edna ilk dəfə tək üzə bilir və bu an onu ruhani baxımdan gücləndirir: o, bundan sonra yalnız daxili arzu və ehtiraslarına uyğun yaşamağa hazır olduğunu hiss edir. Bu metafora roman

boyunca davam edir və hətta romandakı obrazlardan biri Edna Pontelyeni Veneraya bənzədir.

Romanın final səhnəsində bu simvolizm zirvəyə çatır: açıq-saçıq Ednanın suya girməsi təsvir edilir: "Köpüklü dalğalar onun ağ ayaqlarına dolanır və ilan kimi budlarına sarılır" [4, s. 140]. Bu epizod müəllifin Afroditanın klassik təsvirləri ilə bağlı estetik ənənələrə istinad etdiyini göstərir.

Mifoloji düşüncənin əsas xüsusiyyətlərindən biri insanı kainatın ayrılmaz hissəsi kimi qəbul etməkdir; onu bu bütövlükdən ayrı düşünmək mümkün deyil. E.M.Meletinski bu xüsusiyyəti mifin simvolik və ümumiləşdirici qabiliyyəti ilə yanaşı, konkret hissi təfərrüatları qoruması kimi qeyd edir. K.Şopin üçün insan münasibətlərində təbii, səmimi əlaqələrin bərpası xoşbəxtlik üçün vacib şərtidir. Edna ilə Afrodita arasındakı paralellər qəhrəmanın əsas mahiyyətini açmaqla yanaşı, müəllifin öz dünyagörüşünü və həyat konsepsiyasını ifadə etmək üçün vasitədir. Romanın mifoloji qatları Ednanın daxili axtarışlarını qədim, təbii varlıq formalarına dönüş kimi təqdim edir.

Romanda bütün bədii vasitələr – məkan və mühit təsvirləri, obrazlar sistemi, simvollar və təhkiyə quruluşu vahid poetik təsir yaratmağa xidmət edir. Əsərin obrazlar dünyası təbiət və cəmiyyət, ənənə və müasirlik arasındakı kontrast üzərində qurulmuşdur ki, bu da müəllifin azadlıq və məhdudiyyət anlayışlarını açmasına imkan yaradır. Romanın kontekstində quş motivi mühüm rol oynayır və əsərdə birləşdirici, simvolik xəttə çevrilir. Romanın başlanğıcında qəfəsdəki tutuquşunun mənasız cəh-cəhi yaxınlaşmaqda olan daxili qarşıdurmaların və qəhrəmanın üsyan əhval-ruhiyyəsinin xəbərçisi kimi çıxış edir. Daha sonralar Edna ailə həyatını onun şəxsi azadlığını boğan bir qəfəs kimi dərk etməyə başlayır, onun davranış və sözləri isə ərinə tutuquşunun anlaşılmaz və əlaqəsiz sözləri qədər mənasız görünür.

Ednanın təxəyyülündə Frederik Şopenin musiqisi sahildə dayanaraq ümidsiz baxışlarla uçub gedən quşu izləyən çılpaq insan obrazını canlandırır. Bu motiv onun pianoçu dostu madmazel Ris ilə söhbəti zamanı da yenidən səslənir. O, ərinin evindən çıxaraq azadlıq arzusunun simvolu olan kiçik "göyərçin yuvası"na köçür. Lakin romanın finalında quş motivi daha faciəvi səslənir: qanadı sınmış quş sular üzərində dövrə vurur, lakin bir daha ucalıb uça bilmir. Beləliklə, quş obrazı Ednanın taleyinin metaforasına çevrilir: cəmiyyətin məhdudiyyətlərindən azad olmağa çalışsa da onun mənəvi sərbəstlik uğrunda mübarizəsi intihar ilə nəticələnir.

S.Bovuar "İkinci cins" əsərində qeyd edir ki, "qadınlıq sosial konstruktdur və patriarxal cəmiyyət qadınların fərdi inkişafını məhdudlaşdırır" [3]. Edna obrazı da məhz bu məhdudiyyətləri aşmağa çalışan qadın obrazıdır. Onun iç dünyasındakı inqilab ənənəvi qadın obrazına ziddir. Beləliklə, roman qadın azadlığı və fərdilik uğrunda mübarizənin sosial çətinliklərini göstərməklə yanaşı, ənənə və müasirliyin toqquşmasının səbəb olduğu ziddiyyətləri təqdim edir. Ednanın faciəsi onun fərd

olaraq cəmiyyətə, dövrə uyğunlaşmamasından deyil, cəmiyyətin və stereotiplərin ona uyğunlaşmamasından qaynaqlanır.

## ƏDƏBİYYAT SİYAHISI

1. A Kate Chopin Miscellany/ Ed. by P.Scyersted and E.Toth Natchitoches: Northwestern State University Press, 1979. p.91
2. Ardener, Sh. Defining Females: The Nature of Women in Society / Sh. Ardener. New-York, 1978
3. Beauvoir S. The second sex. 1949. URL: https://newuniversityinexileconsortium.org/wp-content/uploads/2021/07/Simone-de-Beauvoir-The-Second-Sex-Jonathan-Cape-1956.pdf
4. Chopin, Kate. The Awakening and Selected Stories.1899. Ed. Sandra M. Gilbert. New York: Penguin Books, 1984, 288 p.
5. Gilbert, S., Gubar, S. The Madwoman in the Attic: The Woman Writer and the Nineteenth-Century Literary Imagination. Yale University Press. 1979, 774 p. URL:https://ia803202.us.archive.org/32/items/TheMadwomanInTheAttic/The%20Madwoman%20in%20the%20Attic.pdf
6. Kohn, Robert E. "Edna Pontellier Floats into the Twenty-First Century." Journal of Popular Culture. 2012. pp. 137-155
7. Showalter E. A Literature Of Their Own: British Women Novelists from Bronte to Lessing. Virago Press Ltd, 2009, p.384

***Ilaha Adil Majidova***

## SUMMARY

## THE COLLISION OF TRADITION AND MODERNITY IN KATE CHOPIN'S NOVEL "THE AWAKENING"

The novel "The Awakening", written by Kate Chopin in the late 19th century, is a work that criticizes the existing gender relations of the Victorian era and the rigid patriarchal ideology that supports the limitation of a woman's value to her biological reproductive function. The author confronts traditional ideas about women in the Victorian era through the characters of Adele Ratinol and Edna Pontellier, who represent different models of femininity. While Adele's character is characterized by the role of a woman as a "sacrificing mother and wife" in the existing patriarchal structure, Edna Pontellier's character is distinguished by her search for individual identity, subjectivity, and a struggle against social conventions. Through the character of Edna, the writer forms a new discourse of female subjectivity and

freedom, deconstructing the dominant ideological narrative that women exist only within the framework of marriage and motherhood. Ultimately, characters like Edna Pontellier lay the literary and cultural foundation for the emergence of the "New Woman" archetype in literary history and pave the way for alternative positions that question women's possibilities for existence.

***Илаха Адиль Маджидова***

**РЕЗЮМЕ**
**СТОЛКНОВЕНИЕ ТРАДИЦИИ И СОВРЕМЕННОСТИ В РОМАНЕ КЕЙТ ШОПЕН «ПРОБУЖДЕНИЕ»**

Роман «Пробуждение», написанный Кейт Шопен в конце XIX века, критикует гендерные отношения викторианской эпохи и жёсткую патриархальную идеологию, ограничивающую ценность женщины её биологической репродуктивной функцией. Автор противостоит традиционным представлениям о женщинах викторианской эпохи через образы Адель Ратиноль и Эдны Понтелье, представляющих разные модели женственности. В то время как для персонажа Адель характерна роль женщины как «жертвенной матери и жены» в существующей патриархальной структуре, характер Эдны Понтелье отличается поиском индивидуальной идентичности, субъективности и борьбой с социальными условностями. Через образ Эдны писательница формирует новый дискурс женской субъективности и свободы, деконструируя господствующее идеологическое представление о том, что женщины существуют только в рамках брака и материнства. В конечном счете, такие персонажи, как Эдна Понтелье, закладывают литературную и культурную основу для появления архетипа «Новой женщины» в истории литературы и прокладывают путь альтернативным позициям, подвергающим сомнению возможности существования женщин.

***Rəyçi: f.f.d., dos. G.M.Hüseynli***